7 dekabr 2001-ci il
№48 (3277)

Ədəbiyyat qəzeti

# YAZIÇILAR BİRLİYİNDƏ

Bu günlər YB-nin Natəvan klubunda tanınmış uşaq şairi və nasir Tofiq Mahmudun anadan olmasının 70 illiyi münasibəti ilə tədbir keçirilmişdir. Məclisi giriş sözü ilə Yazıçılar Birliyinin katibi Fikrət Qoca açmış, yazıçı Əli Səmədli həmkarının ömür yolundan, yaradıcılığından bəzi səhifələri yada salmışdır.



Tədbirdə xalq şairi Qabil, şairlərdən Fikrət Sadıq, Məmməd Aslan, Ramiz Rövşən, Yusif Həsənbəy, Ramiq Muxtar, İbrahim Göyçaylı, Rafiq Yusifoğlu, teatrşünas İnqilab Kərimov mülayim xasiyyətli, xoş rəftarlı Tofiq Mahmudun sadə təbiətindən, zəngin yaradıcılığından söhbət açmışlar. Onlar qeyd etmişlər ki, Tofiq Mahmud həm böyüklər, həm də uşaqlar üçün bədii əsərlər yazmışdır. Amma onun uşaq ədəbiyyatı sahəsində xidmətləri danılmazdır.

Yığıncaq iştirakçıları qeyd etmişlər ki, şair Mədəniyyət Nazirliyində metodist kimi əmək fəaliyyətinə başlamış, bir müddət "Azərbaycan müəllimi" qəzetində müxbir işləmişdir. Onun sonrakı fəaliyyəti "Göyərçin" jurnalı ilə bağlı olmuşdur. Burada ədəbi işçidən redaktora kimi əmək və yaradıcılıq yolu keçmiş Tofiq Mahmud ömrünün 35 ilini jurnala, onun bədii səviyyəsinin yüksəlməsinə, tərtibatının gözəlləşməsinə sərf etmişdir. Qələm dostları habelə yazıçının görkəmli rəssam Bəhruz Kəngərlinin həyatından söhbət açan "Uzaqdan ucalan dağlar" povestini yada salmış, dünya xalqlarının uşaq ədəbiyyatından bir çox nümunələri dilimizə tərcümə etdiyini, öz şerlərinin də xarici dillərə tərcümə olunduğunu, yaradıcılığının müxtəlif mükafatlara layiq görüldüyünü xatırlamışlar.

Məclisdə bəstəkar Rəşid Şəfəq şair dostu ilə mahnı janrı sahəsində çalışdıqları birgə iş proseslərini yada salmışdır. Tofiq Mahmudun uşaqlıq və gənclik dostu Məlik Əliyev xatirələrini söyləmişdir.

Tədbirdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tələbələrinin və şairin nəvələrinin ifasında Tofiq Mahmudun şerləri ifa olunmuşdur. Şairin qardaşı, xalq rəssamı Rafiq Mehdiyev ailələri adından tədbirin təşkilatçılarına və məclisə toplaşanlara təşəkkürünü bildirmişdir.

*İ.Atababa*